**UOT 821.512.162**

**Vasili BARTOLD**
***Akademik***

# ŞAİR NİZAMİNİN MƏZARI

***Açar sözlər:*** *Şeyx Nizami, Gəncə, məqbərə, memarlıq abidəsi*
***Key words:****Sheikh Nizami, Ganja, mausoleum, architectural monument*
***Ключевые слова:*** *Шейх Низами, Гянджа, мавзолей, памятник архитектуры*

V.A.Jukovskinin Firdovsinin qəbri haqqında məqaləsinə (ЗВОРАО[1], 1891: 308-314) əlavə olaraq mən Şərq ədəbiyyatının tədqiqatçısı Etenin bəlkə bir qədər mübaliğə edərək farsca poeziyanın "ikinci böyük klassiki" adlandırdığı, eramızın XIII əsrinin əvvəlində vəfat etmiş şair Nizaminin qəbrinə diqqəti yönəltmək istərdim (Ete, 1896: 241). Nizami 1813-cü il Gülüstan müqaviləsindən sonra rus idarəçiliyinin bütün rifahından faydalanmağa başlayan məkanda yaşamış və dəfn edilmişdir. Lakin indiki halda təqdim olunmuş təsvirlərdən də göründüyü kimi, onun qəbri də Rüstəmi tərənnüm edən şairin[2] qəbri kimi acınacaqlı vəziyyətdədir.

İlk təsvirlər Tiflisdəki Qafqaz muzeyinin direktoru A.N.Kaznakov[3] tərəfindən səmimiyyətlə mənə təqdim edilmiş fotoşəkillərdə əks olunur. A.N.Kaznakovun məlumatına görə, bu xarabalıqlar Şeyx Nizaminin adını daşıyır və Yelizavetpol[4] şəhərinin 4 verstliyində Dəliməmmədli stansiyasına gedən köhnə poçt yolunun üstündə yerləşir.

İkinci təsvir də A.N.Kaznakov tərəfindən mənə Azərbaycan dilində (شیخ نظامی) təqdim olunmuş kitabçadan götürülmüşdür (20 səhifə, 16°). Kitabçanın müəllifi Mirzə Məhəmməd Axundovdur: kitabça Avropa dərslikləri əsasında tərtib edilmiş (M*üəllif N.A.Mednikovun redaktəsi ilə rus dilinə tərcümədə nəşr olunmuş A.Müllerin "İslam tarixi" və Şerrin "Ədəbiyyatın ümumi tarixi" əsərlərinə əsaslanır) və 1909-cu ildə Gəncədə (Yelizavetpolda) (Mirzə Məhəmmədəli Axundzadənin "Şeyx Nizami (tərcümeyi-halı)" adlı əsəri 1909-cu ildə Azərbaycan Demokratik Respublikasının qurucularından olan Məhəmmədbağır Şeyxzamanov tərəfindən ərəb əlifbası ilə nəşr edilmiş nüsxəsi 2021-ci ildə Cümşüd Muradov tərəfindən transliterasiya edilərək çap olunmuşdur. Həmin nəşrə Mirzəməhəmməd Axundzadənin Şeyx Nizami və onun məqbərəsi ilə bağlı 1909-cu ildə "Tərəqqi" qəzetinin 9, 17, 49, 67 və 92-ci nömrələrində dərc edilmiş məqalələri də əlavə edilmişdir.*[5] – **redaktordan**) nəşr olunmuşdur[6].

Bu kitabçaya əsasən bina "köhnə şəhərdə, müasir şəhərin 7 verstliyində" yerləşir. Müəllif qəbrin acınacaqlı vəziyyətindən bəhs edərkən müsəlman ölkələrini alimlərin xidmətlərinin yüksək qiymətləndirildiyi Avropaya qarşı qoyur; onun sözlərinə görə, "Sədi, Hafiz[7], Füzuli, Xaqani, Qaani və digər şairlərin dağılmış qəbirlərinin təmir edil-

---

[1] Записки Восточного Отделения Русского Археологического Общества – Rusiya Arxeologiya Cəmiyyəti Şərq Bölməsinin Əsərləri. Bu seriyanın təşəbbüsçüsü böyük elm təşkilatçısı, həmin bölmənin rəhbəri, baron V.R.Rozen olmuşdur. 1886-1925-cil illər arasında nəşr edilmiş bu toplu XIX əsrin sonları, XX əsrin əvvəllərində Rusiya imperiyasında Şərqşünaslıq araşdırmalarının dərc edildiyi əsas jurnal olmuşdur. Və burada ən görkəmli şərqşünas alimlərin qiymətli tədqiqatları işıq üzü görmüşdür. - **redaktordan**

[2] V.V.Bartold o dövrdə məzarı elə Nizami qəbri kimi bərbad vəziyyətdə olan "Şahnamə" müəllifi Əbülqasım Frdovsini nəzərdə tutur. - **redaktordan**

[3] Burada adı çəkilən fotolar keyfiyyətsiz olduğundan təqdim edilmirlər (bax. ЗВОРАО, XXI, səh. 034 və 035 )

[4] Keçmiş Kirovabad, indiki Gəncə şəhəri

[5] Bax: Muradov C. (2021) *Seçilmiş əsərləri*. Bakı: Elm və təhsil. - **redaktordan**

[6] Müxtəlif dövrlərdəki vəziyyəti ilə əlaqədar olaraq bax: Hüseynov R.(2020) *80 ilin güzgüsü*. Bakı: Elm və təhsil (səh. 5,7) - **redaktordan**

[7] Görünür, müəllif Sədi və Hafizin Şirazdakı qəbirlərinin vəziyyəti barədə məlumatsızdır (Jukovski, 1891: 313)

məsi heç kimin ağlına belə gəlmir”. Kitabçanın satışından əldə olunan bütün gəlir Nizaminin mavzoleyinin yenidən qurulması üçün nəzərdə tutulurdu.

Mənbələrdə Nizaminin Gəncədə dəfn olunması barədə yalnız ümumi sözlərlə bəhs edilir, mən mavzoleyin xarici görünüşü, kim tərəfindən tikilməsi və s. haqqında məlumata rast gəlməmişəm. Mənə mavzoley haqqında yalnız aşağıdakı əsərlərdən məlumdur:

1) “Tarix-i aləmara-yi Abbasi”nin[1] (Münşi, 1314: 498) müəllifi İskəndər Münşinin qeydlərinə görə, 1606-cı ilin fevral ayında Şah Abbasın ordusu Gəncəyə yaxınlaşdı; şahın düşərgəsi Şeyx Nizaminin mavzoleyi (تربت) yaxınlığında salındı; buradaca 1014-cü il h.t. 15 zü-l-qədə Şənbə günü (25 mart 1606) novruz şənlikləri keçirilmişdir.
2) Şah Nəsir əd-din Avropaya ilk səyahətindən sonra (1873) Yelizavetpoldan vətəninə qayıdarkən yolüstü Şeyx Nizaminin bişmiş kərpicdən tikilmiş, lakin artıq çox acınacaqlı vəziyyətdə olan mavzoleyini görmüşdür[2]. (Aleksandroviç[3], 1926; Aleksandroviç, 1947: 380; Şeblıkin, 1943: 380)

**QAYNAQLAR:**


1. Ethe H. (1896) *Neopersische Litteratur.* Oxford.
2. Александрович, Дж. (Насыфи). (1926) Ганджа и могила поэта Низами (приложен план и разрез мавзолея). *Известия Азербайджанского археологического комитета.[4] Наркомпрос АССР.*- Вып. 2.- 88 с. С приложением 10 таблиц рисунков и чертежей Баку: 2-я Государственная типография Азполиграфтрест ВСНХ.
3. Александрович, Дж. (Насыфи). (1947) Надписи архитектурных памятников Азербайджана эпохи Низами. — В кн.: *Архитектура Азербайджана эпохи Низами*. Баку: 2-я Государственная типография Азполиграфтрест ВСНХ.
4. Жуковский, В. (1891) Могила Фирдоуси (из поездки в Хорасан летом 1891 г.). ЗВОРАО, издаваемые под редакцией управляющего отделением Барона В.Розена. Том VI. СПб. С.-Петербург: Типография Императорской Академии Наук. Стр.308-314
5. Мунши, Искандар. (1314 (1896-1897 гг)) Та`рих-и `аламара-йи `Аббаси. Тегеран.
6. Шеблыкин, И.П. (1943) Памятники Азербайджанского зодчества эпохи Низами (материалы). Баку: АзФАН


---

[1] Həmçinin bax: İskəndər Bəy Münşi Türkman. (2014 ) *Dünyanı bəzəyən Abbasın tarixi*. II kitab. Azərbaycan dilinə çevirəni Şahin Fərzəliyev. Bakı: Şərq-Qərb. - **redaktordan**

[2] 1925-ci ildə C.Aleksandroviç Nizaminin qəbrinə baxış keçirərkən belə bir qərara gəlir ki, hazırda mövcud olan mavzoley sonradan tikilmədir, ilkin tikilidən isə əsər-əlamət qalmamışdır.1932-ci ilə isə köhnə tikilidən yalnız fundament və kərpicdən inşa edilmiş bir neçə divar hörgüsü qalmışdır.1940-cı ildə nəzərdə tutulmuş yeni abidə ilə əlaqədar mavzoleyin yerində aparılmış qazıntı işləri V.V.Bartoldun yazdığı kimi Aleksandroviçin mavzoleyin sonradan inşa edilməsi fikrini təsdiq edir.

[3] Cəmil Aleksandroviç (Nasıfi) Litva tatarı olub. Bakıya 1920-ci illərin əvvəllərində gəlib və Azərbaycan Arxeoloji Komitəsində işləyirmiş. O, daha əvvəl də oxşar fəaliyyətlə məşğul olmuş, Krımın Tədqiqi Cəmiyyətində çalışmışdır. 1924-cü ildən “Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti”nin işində də yaxından iştirak etmişdir. Bir çox Şərq və Qərb dillərini – ingilis, fransız, alman, polyak, ərəb, fars və türk – yaxşı bilən Cəmil Aleksandroviç 1925-26-cı illərdə Xocalı Kurqanında, Qız Qalası ətrafında da araşdırmalar aparmışdır. (Haqqında həmçinin bax: Quliyev, V. (2021) Cəmil Aleksandroviç Nizami məqbərəsində. *525-ci qəzet*, 23 və 30 noyabr. ) - **redaktordan**

[4] Elə ЗВОРАО-nun bənzəri kimi yaradılmış “Azərbaycan Arxeoloji Komitəsinin Əxbarı” adlı araşdırmalar toplusu da nəşr edildiyi qısa müddətdə, 1920-ci illərdə bir sıra layiqli tədqiqləri təqdim etmişdir. Həmin Toplunun 1926-cı ildə buraxılmış və Bakıda keçirilən I Türkoloji Qurultaya ithaf edilmiş cildində Cəmil Aleksandroviçin (Nasıfi) iki yazısı dərc edilmişdir ki, onlardan biri “Gəncə və şair Nizaminin qəbri” adlanır. Gəncə ekspedisiyasında İ.Əzimbəyovla birgə iştirak etmiş C.Aleksandroviç (Aleksandroviç, 1926: 21) məqaləsinin sonunda ilk dəfə olaraq gəncəli dahinin mavzoleyinin cizgilərini də dəqiq ölçüləri ilə vermişdir (Aleksandroviç, 1926: 24-25). Yazıda məqbərənin ətraflı və qalıqları müfəssəl təsvir edilir (Aleksandroviç, 1926: 24-25). – **redaktordan**

**Vasili BARTOLD**

**Poet Nizami's tomb**

***Summary***

It is described in the article by the prominent Russian orientalist V.V. Bartold the condition of Nizami Ganjavi's tomb. It is mentioned that the tomb of Nizami who passed away at the beginning of 13th century, like the tomb of "Shahname" s author Firdowsi, had been in bad condition. Bartold had examined the photos of the mausoleum given to him by the director of the Caucasus Museum in Tbilisi Kaznakov and relying on the given information pointed out that he ruins around the tomb were also associated with the name of Nizami. This grave is located on the old postal road to Dalimammadli railway station, 4 versts far from Yelizavetpol city. The second description cited by the author of the article was taken from the book dedicated to Nizami of Azerbaijani author Mirza Mahammad Akhundov, published in Ganja. According to the information given in the book, Nizami's mausoleum was located in the old city - 7 versts far from the present-day city of Ganja. It was also mentioned in the book that the tomb was in miserable condition. According to V.V Bartold, it have been found information about the view of the masoleum, it's architect and the time of building in research works and sources of classical period literature. Then Bartold gave information about the masoleum of Nizami found in chronicle "Tarihi-alamarayi-abbasi" He later wrote that Nasreddin Shah on his way back from first trip to Europe in 1873, passing through Elizavetpol, have visited Nizami's mausoleum, built of baked brick, but it was still in in a dilapidated condition. In this article Bartold intended to focus on Nizami's masoleum and update the problem of its renovation.

**Василий БАРТОЛЬД**

**Могила поэта Низами**

***Резюме***

В статье выдающегося русского востоковеда Бартольда говорится о состоянии могилы Низами Гянджеви. Отмечается, что могила скончавшегося в начале XIII века Низами подобно могиле автора «Шахнаме» Фирдоуси. находилась в плачевном состоянии, Бартольд изучивший снимки могилы, представленные ему директором Кавказского музея в Тифлисе Козначковым, на отмечал, что руины вокруг могилы также были связаны с именем шейха Низами. Эта могила расположена над старой почтовой дорогой, ведущей к станции Делимеммедли, в 4 верстах от города Елизаветполь. Второе изображение, на которое ссылается автор статьи, было опубликовано в изданной в Гяндже книге азербайджанского автора Мирзы Мухаммеда Ахундова и было также посвящено Низами. По сведениям, указанным в данной книге, мавзолей Низами располагался в старом городе – в 7 верстах от нынешнего города Гянджа. В книге также было отмечено, что могила находилась в плачевном состоянии. Бартольд подчеркивает, что в исследованиях и источниках, связанных с классической литературой, встречается информация о том, кто построил мавзолей и о его внешнем облике. Далее Бартольд доводит до сведения информацию, отмеченную в летописи под названием «Тарихи-алемараи-аббаси», связанную с мавзолеем Низами. Затем он пишет о том, что в 1873 году Насреддин шах, возвращаясь из первого путешествия в Европу на Родину, проезжал через Елизаветполь и посетил построенный из обожженного кирпича мавзолей Низами, который все также находился в плачевном состоянии. В данной статье Бартольд хотел акцентировать внимание на мавзолей Низами, а также актуализировать проблему, его реконструкции.